**Tofiq Hüseynov**

**UOT:330:001.89; JEL: A12;A29.**

# Azərbaycanda elmi fəaliyyətin vahid mərkəzdən idarəedilməsi dövrün tələbidir

***Xulasə***

*Azərbaycanın normativ hüquqi aktları ilə Azərbaycan Milli Elmlər Akademiyasına ölkədə elmin inkişafını təşkil və təmin edən, respublikadakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən ali dövlət elmi təşkilat statusu verilmişdir. Məqalədə bu statusa uyğun olaraq AMEA-nın indiki dövrdə hüquq və vəzifələrini əks etdirən normativ aktlar təhlil edılır, qiymətləndirilir və mübafiq təklif və tövsiyyələr verilir.*

**Açar sözlər:** milli strategiya, vahid mərkəzdən udarəetmə modeli, innovasiyalı iqtisadiyyat, dövlət sifarişi, elmin maliyyələşdirilməsi, əmək məhsuldarlığı, əsasnamə, əlaqələndirmə.

## Giriş

İnnovasiyalı iqtisadi inkişaf ölkədə innovasiyalardan istifadə üçün önəmli mühitin mövcudluğundan ibarətdir. Dövlətstatkomun məlumatına görə 2018-ci ildə, yəni pandemiyadan əvvəlki ildə Azərbaycanda emal sənaye məhsullarının cüzi bir hissəsi, 0,28 faizi innovasiya təyinatlı olmuşdur. Emal sənaye sektorunda əsas kapitala investisiyaların cəmisi 2,3 faizi texnoloji innovasiualarn payına düşmüşdür. Hesablamalarımız göstərir ki, Rusiya, Litva və Qazaxstanla müqayisədə Azərbaycanda əmək məhsuldarlığı 1,6-2,3 dəfə, Avropa ölkələri ilə müqayisədə 6-7 dəfə aşağıdır (2014-cü il). Yuxarıda deyilənləri nəzərə alaraq Azərbaycanda elmi fəaliyyətin təşili və idarəedilməsi sisteminin mövcud vəziyyətinin araşdırılması mühüm aktuallıq kəsb edir.



## Azərbaycanda elmin inkişaf strategiyası

2003-cü ilin əvvəllərində ölkə Prezidentinin fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasına Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, respublikadakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən ali dövlət elmi təşkilat statusu verilmişdir. Hesab edirəm ki, bu status AMEA-nın mərkəzi idarəetmə orqanına çevrildiyini ehtiva edir. Bununla da Azərbaycanda elmin inkişafını və onun nailiyyətlərinin iqtisadiyyata tətbiq edilməsini təşkil edən vəzifələr Akademiyanın qarşısında qoyulmuşdur. Beləliklə, mərkəzi icra hakimiyyəti orqanı kimi innovasiyalı iqtisadiyyatın formalaşdırılmasında Milli Elmlər Akademiyasının aparıcı rolu müəyyən edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" təsdiq edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında ölkənin iqtisadi inkişafında elmin rolunun artırılması və bütövlükdə elmin maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi də əks etdirilmişdir. Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur ki, 2009-2010-cu illərdə AMEA və tabeliyində elmi müəssisələr olan dövlət qurumları tərəfindən elm sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsinə dair təkliflər işlənib hazırlansın (Dövlət Proqramı, bölmə 6). Elm sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətlərindən biri kimi "Strategiya"da ölkənin elmi-tədqiqat müəssisələrində həyata keçirilən tədqiqatların vahid mərkəzdən idarə olunması modelinin tətbiqi nəzərdə tutulmuşdur. Bu səlahiyyətin də AMEA-ya verilməsi göstərilmişdir. AMEA-nın illik hesabatlarında nazirliklərin, dövlət komitələrinin,

*©Tofiq Hüseynov Azərbaycan Respublikasının əməkdar iqtisadçısı, i.e.d., prof., AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

şirkətlərin, özəl qurumların və ali təhsil müəssisələrinin elmi fəaliyyətinə aid yekunların təhlil edilməsi və qiymətləndirilməsi də hədəflərdən biri olmuşdur (“Strategiya” bölmə 8). Elmi tədqiqatların ekspertizasının aparılması və səmərəliliyinin qiymətləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də AMEA-ya həvalə edilmişdir (AMEA Nizamnaməsi, bənd 3.0.19).

“Strategiya”da Azərbaycanda elmin və elmi-texniki fəaliyyətin təşkili və idarə olunmasında ciddi nöqsanların olması vurğulanmış, inkişaf səviyyəsi qənaətbəxş qiymətləndirilməmişdir. Azərbaycan Respublikasında elm sahəsində mövcud vəziyyət əks olunan “Strategiya”da göstərilmişdir ki, innovasiya ideyalarının real tətbiq sahələrinə çevrilməsi üçün zəruri olan elmi mühit hələ də müasir dövrün tələblərinə tam cavab vermir və qeyd edilmişdir ki, elmin maliyyələşdirilməsi sahəsində də mövcud vəziyyət qənaətbəxş deyildir. Orada vurğulanır ki, əgər 1980-1990-cı illərdə büdcədən elmə sərf olunan xərclərin ÜDM-də payı 0,3-0,5 faiz həddində olmuşdursa, 1998-2008-ci illər ərzində bu göstərici 0,2 faiz təşkil etmişdir (“Strategiya” bölmə 3). Bu dövlət sənədlərində Azərbaycan elmində yaranmış vəziyyətin səbəbləri ətraflı işıqlandırılmış, qarşıya qoyulan məqsədlər, vəzifələr, onların yerinə yetirilməsini təmin edən tədbirlər kompleksi müəyyən edilmişdir.

2015-ci ilə qədər “Strategiya”da bütövlükdə elmin maliyyələşdirilməsi mexanizmi kimi fundamental, humanitar və ayrı-ayrı prioritet tətbiqi elmi tədqiqatların dövlət büdcəsindən maliyyələşdirilməsi dövlət sifarişi formasında həyata keçirilməsinin təmin olunması hədəflənmişdir. Dövlət sifarişinin yerinə yetirilməsində AMEA-ya daxil olan elmi-tədqiqat institutlarının və müəssisələrinin, habelə dövlət büdcəsindən maliyyələşən digər elmi-tədqiqat müəssisələri və təşkilatlarının iştirak etməsi (“Strategiya”, bölmə 11) nəzərdə tutulmuşdur. Burada diqqət yetirilməli məsələ ondan ibarətdir ki, dövlət büdcəsindən maliyyələşməyən ancaq dövlət və özəl sektorlara məxsus olan elmi-tədqiqat müəssisələri dövlət sifarişində iştirak edə bilməzlər. İndiki şəraitdə bu normativ müddəanı məqbul hesab etmirəm. Bəzi idarəetmə orqanlarının rəhbərləri dövlət büdcəsindən elmin maliyyələşdirilməsinin indiki formasını dövlət sifarişi kimi başa düşürlər. Onların diqqətinə çatdırıram ki, dövlət sifarişi kimi maliyyələşdirmə sisteminin mahiyyəti sifarişçi və icraçı arasında konkret mövzu üzrə müqavilələrin bağlanması kommersiya prinsipinə əsaslanır, yəni sifarişin qiyməti tərəflərin razılaşdırılması əsasında müəyyən edilir. Tədbirlər planına görə 2009-2015-ci illərdə AMEA və Maliyyə Nazirliyi tərəfindən elmin inkişafını təmin edən maliyyələşdirmə sisteminin, yəni dövlət sifarişi əsasında maliyyələşdirmənin tətbiqini təmin etməli idilər. Təəssüflə qeyd edim ki, “Strategiya”nın qəbul edilməsindən 10 il keçməsinə baxmayaraq, bu sistem nəinki tətbiq olunmur, heç onun normativ hüquqi bazası da yaradılmamışdır. Məlumdur ki, innovasiyalar ictimai istehsalın səmərəli inkişafını təmin edən əsas amillərdən biridir. İnnovasiyaların tətbiqi isə elmi fəaliyyətin təşkilindən və ölkədə innovasiyalardan istifadə üçün önəmli mühitin mövcudluğundan asılıdır.

**İnnovasiyalı iqtisadi inkişaf göstəriciləri**

İqtisadiyyatın innovasiyalı inkişafını xarakterizə edən əsas göstəricilərdən biri əmək məhsuldarlığıdır. 2010-2015-ci illəri əhatə etməklə, əmək məhsuldarlığının dinamikasına aid apardığımız təhlillər əsasında müəyyən edilmişdir ki, 2015-ci ildə 2010-cu illə müqayisədə ölkə üzrə əmək məhsuldarlığı cəmisi 4,3 faiz yüksəlmiş və 10,2 min manat təşkil etmişdir. Məşqul əhalinin 99,4 faizi çalışan qeyri-neft sektorunda əmək məhsuldarlığı ölkə üzrə orta göstəricidən 1,7 dəfə azdır. Hesablamalarımız göstərir ki, Rusiya, Litva və Qazaxıstanla müqayisədə Azərbaycanda əmək məhsuldarlığı 1,6-2,3 dəfə, Avropa ölkələri ilə müqayisədə 6-7 dəfə, ABŞ-la müqayisədə isə 7 dəfədən çox aşağıdır (2014-cü il). İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahələrində ölkə üzrə məşğul olanların 1-5 faizi çalışırsa, Azərbaycanda bu sektorda işləyənlərin sayı ilbəil artaraq, iqtisadiyyatda məşğul olanların 36,3%-i olmaqla, 1,7 mln. nəfərdən çox olmuşdur (2018-ci il). Aqrar sektorda işləyənlər tikinti və nəqliyyat



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sektorlarında işləyənlərin sayından 3,2 dəfə çox olmasına baxmayaraq, orada yaradılan əlavə dəyər 2,7 dəfə azdır. İqtisadi nəzəriyyənin və beynəlxalq təcrübənin əksinə olaraq Azərbaycanda əmək haqqının artım tempi əmək məhsuldarlığının artım tempini dəfələrlə üstələyir. Belə ki, 2015-ci ildə 2010-cu ilə nisbətən əmək məhsuldarlığı 4,3 faiz artdığı halda, nominal əmək haqqı 41 faiz artmışdır.

Əmək məhsuldarlığının yüksəldilməsinin əsas faktoru innovasiyalı inkişaf olduğuna görə qeyd edim ki, ölkədə innovasiyalı məhsul istehsalı çox aşağı səviyyədədir. Dövlətstatkomun məlumatına görə 2018-ci ildə emal sənaye məhsullarının cuzi bir hissəsi, yəni 0,28 faizi innovasiya təyinatlı olmuşdur. Belə məhsulların istehsalı 2018-ci ildə 29,6 mln. manat olmuşdur. 2018-ci ildə emal sənayesində texnoloji investisiyalara cəmisi 33 mln. man. investisiya qoyulmuşdur ki, bu da emal sənaye sektoruna qoyulan investisiyaların cəmisi 2,3 faizinə bərabərdir. 2014-cü ildən bu məqsədlə dövlət büdcəsindən vəsait ayrılmır. Müəssisələr öz vəsaitlərindən istifadə etmişlər. 2013-2015-ci illərdə emal sənaye sahələrində 5,8 milyard manat dəyərində yeni əsas istehsal fondlarının istifadəyə verilməsinə baxmayaraq, 2017-ci ildə onların aşınma səviyyəsi 60 faizə yaxın olmuş və hər il 5-6 faizi yeniləşmişdir. 2017-ci ildə 2021-ci illə müqaisədə emal sənayesində əmək məhsuldarlığının artım tempi cəmisi 2,4-% təşkil etmişdir. Diqqətə çatdırmaq istəyirəm ki, "Strategiya"nın qəbulundan 10 ildən çox keçməsinə baxmayaraq, 2018-ci ildə bu rəqəm nəinki artmamış, hətta azalaraq 0,15 faizə düşmüşdür (cədvəl 1).

**Cədvəl 1.**

**Dövlət büdcəsindən elmə xərclənmiş vəsaitlərin dinamikası**

| Göstəricilər | 2010 | 2014 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Elmə ayrılan vəsait (mln. man.)** | 93 | 124 | 110 | 110 | 118 |
| **Ümumi daxili məhsul (mln. man.)** | 42465 | 59014 | 60425 | 70135 | 79797 |
| **Büdcə vəsaitlərinin ÜDM-də payı (%)** | 0,22 | 0,21 | 0,18 | 0,15 | 0,15 |

Mənbə: "Azərbaycanın statistik göstəriciləri", Dövlətstatkom, 2019, s.261

İqtisadi inkişafın keyfiyyət göstəricilərinin formalaşmasında belə vəziyyət nə ilə izah edilir? 2015-ci ildə Dövlətstatkom tərəfindən 300-dən çox orta və iri sənaye müəssisəsində aparılan sorğudan görünür ki, innovasiyaya mane olan səbəblər çoxdur və onlar həm institusional, həm də istehsal amilləridir. Onların hamısını sadalamağa ehtiyac olmadığına görə bir neçəsini qeyd etmək istərdim. Səbəblər sırasında texnologiyalar bazarının inkişaf etməməsini, dövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmamasını, müəssisənin innovasiya potensialının aşağı olmasını, müəssisələr tərəfindən innovasiyalara maraq göstərilməməsini, innovasiya məhsullarına tələbatın az olmasını, xərclərin ödənilmə müddətinin çox olmasını, yeni texnologiyalar haqqında informasiyaların çatışmamasını, normativ-hüquqi sənədlərin olmamasını, müəssisələrin öz vəsaitlərinin azlığını, yeniliklərin dəyərinin yüksək olmasını, ixtisaslı işçilərin çatışmamasını və 10-dan çox digər səbəbləri göstərirlər.

**Cədvəl 2.**

**Emal sənayesinin innovasiyalı inkişaf göstəriciləri**

| Əsas göstəricilər | 2010 | 2014 | 2017 | 2018 |
|---|---|---|---|---|
| **İnnovasiya məhsulunun həcmi, mln.man** | 6,4 | 1,5 | 14,8 | 29,6 |
| **Həmçinin emal sənaye məhsullarında xüsusi çəkisi** | 0,11 | 0,02 | 0,15 | 0,28 |
| **Əsas sənaye istehsal fondlarının aşınması, yekuna görə faizlə** | 57 | 46,8 | 57 | - |
| **Həmçinin yenilənməsi, yekuna görə faizlə** | 5,5 | 14,1 | 5,7 | - |
| **Texnoloji innovasiyalara çəkilən xərclər, mln. man** | 8,1 | 32,3 | 16,1 | 33,0 |
| **Həmçinin, emal sənayesinin əsas kapitala investisiyalarda xüsusi çəkisi, %** | 1,6 | 6,7 | 2,5 | 2,3 |

Mənbə: Dövlətstatkomun rəsmi informasiyaları əsasındamüəllif tərtib edilmişdir sonrakı illərin informasiyası Dövlətstatkom təəfindən dərc edilmişdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Deyilənlərdən qənaətimiz ondan ibarətdir ki, ölkədə elmi və elmi-texniki fəaliyyətin təşkili və idarəçiliyinin təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Akademik Ramiz Mehdiyev demişdir: "təbii sərvətlər bir çox ölkələrin əsas gəlir mənbəyinə çevrilərək onların iqtisadiyyatında mühüm rol oynamışlar. Lakin son 20 ildə yüksək ixtisaslı işçi qüvvəsi, yüksək texnologuiyalar, nou-hau təbii resurslarla müqayisədə milli sərvəti artırmağın daha etibarlı amili kimi çıxış etməkdədir". ("Azərbaycan" qəzeti, 17.04.2018).

**Elmi fəaliyyətin vahid mərəzdən idarəetmə modelinin tətbiqi**

Yuxarıda qeyd edilən faktlar göstərir ki, 2003-cü il tarixli Prezident fərmanına uyğun olaraq Milli Elmlər Akademiyasının təşkilati-idarəetmə strukturu və hüquqları onun statusuna və qarşıya qoyulan vəzifələrə adekvat qurulmamışdır. Vahid mərkəzdən idarəetmə modelinin tətbiqi indiyə qədər təmin edilməmişdir. 2003-cü ildə təsdiq edilmiş nizamnaməsində AMEA-nın hüquqları belə formalaşdırılmışdır: Akademiya əlyazmalarını dövlət arxivlərinə təhvil vermək, mərkəzi icra hakimiyyəti orqanlarından dövlət təşkilatlarından (diqqət yetirin, ançaq "dövlət təşkilatlarindan" ifadəsinə. Bəs qeyri-dövlət təşkilatları necə) zəruri sənədlər və informasiya almaq, göstərilən təşkilatlardan ekspert və məsləhətçilər cəlb etmək, ödənişli əsaslarla kadr hazırlamaq hüququ vardır. Beləliklə, mərkəzləşdirilmiş nəzarət etmək səlahiyyəti AMEA-ya verilməmişdir.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 10 dekabr 2018-ci il tarixli sərancamında və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" ölkə prezidentinin 17 yanvar 2019-cu il tarixli fərmanında da vurğulanır ki, elmi fəaliyyətin qiymətləndirilməsi və monitorinqi sahəsində idarəetmənin və tənzimlənmənin təkmilləşdirilməsi, elmi tədqiqatlar haqqında məlumat bazasının yaradılması və elmi informasiya əlçatanlığının təmin edilməsi üçün elektron məlumat sisteminin yaradılması tələb olunur. Akademik Ramiz Mehdiyevin fikrincə, "idarəetmə islahatları bir qayda olaraq yalnız çevik idarəçiliyə və koordinasiyaya şərait yaratdığı halda iqtisadi və təşkilati baxımdan müsbət nəticələr əldə olunur" ("Azərbaycan" qəzeti, 17.04.2018).



2016-cı ildə qəbul edilmiş "Elm haqqında" qanunda deyilir ki, Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, ölkə üzrə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən qurum (orqan) dövlət ali elmi təşkilatdır (maddə 11). Qanunun qəbulundan sonra Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasına respublikanın ali elmi təşkilat statusu verilmişdir. Başqa sözlə 2003-cü ildə AMEA-ya verilən status bir daha təsdiqlənmişdir. Azərbaycanda təhsil-elm-istehsalat zəncirinin idarə edilməsinin təkmilləşdirilməsi haqqıpnda iki prinsipial xarakterli konsepsiya mövcuddur. Birinci konsepsiya elmlə təhsilin vahid mərkəzdən idarə edilməsində ibarətdir. Bu məqsədlə Elm və Təhsil Nazirliyinin yaradılması tövsiyyə olunur. İkinci konsepsiya isə Milli Elmlər Akademiyasında struktur islahatlarının dərinləşdirilməsini və dütünlükdə ölkədə elmi tədqiqatların idarəetmə və koordinasiya funksiyalarının onun ona həvalə edilməsini nəzərdə tutur. Bu məqalənin müəllifi ikinci konsepsiyanı dəstəkləyir və hesab edir ki, ölkə başçısının 11 dekabr 2014-cü il tarixli Fərmahı ilə təstiq edilmiş nizamnamə ilə AMEA-nın hüquqları xeyli genişləndirilmişdir. Onun hüquqları 30 bənddən ibarət müəyyən edilmişdir. Ona icazə verilir ki, dövlət və özünü idarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə elmin inkişafı ilə bağlı zəruri məlumatlar (sənədlər) barədə sorğu versin və onlardan belə məlumatları (sənədləri) alsın (Nizamnamə, bənd 4.0.2). Onun nizamnaməsində göstərilir ki8, ancaq tabeliyində olmayan elmi müəssisələr və təşkilatlar tərəfindən icrası məcburi olan qərar və

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sərəncamlər vermək, onların icrasına nəzarət etmək (bənd 4.0.3) hüququ vardır. Milli Elmlər Akademiyasının tabeliyində olmayan elmi müəssisələr və təşkilatlarla, ali təhsil müəssisələri ilə elmi-tədqiqat fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi üçün tələb olunan hüquqlar, statusunda nəzərdə tutulmasına baxmayaraq, Akademiyanın nizamnaməsində yoxdur. Beləliklə, onun tabeliyində olmayan elmi müəssisə və təşkilatlara təsiretmə hüququ önəmli deyil. Akademiya onların elmi fəaliyyətini təhlil edə, qiymətləndirə, istiqamətləndirə və onlara ancaq tövsiyyələr verə bilər (bənd 3.0.20). AMEA-ya həmin təşkilatlarda elmi işlərin yerinə yetirilməsinə heç nəzarət etmək hüququ da verilməmişdir.

Tam əminlikdə demək olar ki, "Elm haqqında" qanunla və ölkə Prezidentinin 11 dekabr 2014-cü il tarixli fərmanı ilə müəyyən edilmiş vəzifələrin uğurla yerinə yetirilməsi üçün Akademiyanın hüquqları önəmli deyil. Akademiyanın strukturu təkmilləşdirilməli, hüquqları genişləndirilməli və ona mərkəzi icra hakimiyyəti orqanının hüquqları verilməlidir. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadə demişdir: "Bizim məqsədimiz elmi-innovasiyalı düşüncülərə əsaslanan bilik cəmiyyəti qurmaqdır" ("Эхо" qəzəti, 26.05.2018). Bu məqsədlə ölkə Prezidentinin fərmanı ilə təstiq edilmiş mərkəzi icra hakimiyyəti orqanlarının nümunəvi əsasnaməsində uyğun olaraq, Milli Elmlər Akademiyasının məhz əsasnaməsinin (söhbət mövcud nizamnamənin təkmilləşdirilməsindən getmir) işlənməsi və təsdiq olunması düzgün olardı. Bu əsasnamənin hazırlanması zamanı Fövqəladə Hallar Nazirliyinin və Dövlət Statistika Komitəsinin əsasnaməsi nümunə kimi istifadə oluna bilər. Nəzərə alınmalıdır ki, digər MDB ölkələrindən fərqli olaraq, Azərbaycanda AMEA faktiki olaraq məhz mərkəzi dövlət idarəetmə orqaı statusu verilmişdir. Onun nizamnaməsində göstərilir ki, o, elmi tədqiqat müassisələrində aparılan tədqiqatların vahid mərkəzdən idarə olunmasını təmin etməlidir (bənd 3.0.19). AMEA-ya elə hüquq verilməlidir ki:

- Onun qəbul etdiyi qərarların müvafiq icra hakimiyyəti orqanları, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün elmi müəssisə və təşkilatları tərəfindən vaxtında yerinə yetirilməsi məcburi olsun. 2006-cı il 13 fevral tarixli prezident fərmanı ilə təsdiq edilmiş «Mərkəzi İcra Hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi» ilə (bənd 14.5) belə hüquqi norma müəyyən edilmişdir;
- Respublika üzrə elmi-tədqiqat işlərinin dövlət sifarişi əsasında yerinə yetirilməsinin təşkili və idarəedilməsi AMEA-ya həvalə edilsin; Bununla əlaqədar olaraq, dövlət büdcəsindən elmə ayrılan vəsaitlər bütünlükdə AMEA-ya verilsin və onun tərəfindən digər elmi mərkəzlərə və universitetlərə onlara verilmiş sifarişlərin müqabilində kommersiya müqaviləsi əsasında maliyyələşdirmə həyata keçirilsin.
- Dövlət büdcəsindən maliyyələşdirilən elmi-tədqiqat işləri dövlət sifarişi kimi hökumətin qərarı ilə rəsmləşdirilsin.

"Elm haqqında" qanunda göstərilir ki, elmi müəssisələrə və təşkilatlara elmi tədqiqatların yerinə yetirilməsi məqsədilə sifarişlər verilə bilər (Maddə 28). Dövlət sifarişləri üzrə yerinə yetirilən elmi tədqiqatların nəticələri dövlətə məxsusdur. Elmi və elmi-texniki işlərin dövlət sifarişi əsasında yerinə yetirilməsi "Elm haqqında" qanunun 35-ci maddəsində də nəzərdə tutulmuşdur. Elmi və elmi-texniki fəaliyyətin ekspertizası aparılmalıdır (Maddə 27). Elmi və elmi-texniki məhsulların təhlilinin və qiymətləndirilməsinin bu sahədə təcrübəsi olan ixtisaslı ekspert təşkilatları və fiziki şəxslər (ekspertlər) tərəfindən aparılması "Elm haqqında"qanunda nəzərdə tutulur (Maddə 27.3.4). Sənayedə texnoloji səviyyəni və innovasiya fəallığını aşkar etmək məqsədilə Avropada mövcud olan metodikadan istifadə edərək Rusiyada "Emal sənayesinin və xidmət sferası müəssisələrinin innovasiya fəallığının monitorinqi" adlı normativ sənəd Azərbaycanda da hazırlana və istifadə oluna bilər.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Digər mühüm məsələ AMEA-nın idarəetmə strukturu ilə bağlıdır. 2003-cü ildə Milli Elmlər Akademiyasının prezidentini qəbul edərkən unudulmaz Heydər Əliyev demişdir: “Hər bir ölkə özü müəyyən edir ki, ona akademiya lazımdır, yoxsa lazım deyil. Əgər lazımdırsa bu, hansı strukturda lazımdır. Bu struktur da ölkənin tələbatına uyğun olmalıdır” (“Azərbaycan”qəzeti, 03.01.2003). 2018-ci ildə akademik Ramiz Mehdiyev demişdir: “iqtisadi yönümlü dövlət orqanlarının fəaliyyətinin səmərəli koordinasiyasının təmin edilməsi xüsusi aktuallıq kəsb edir” (“Azərbaycan” qəzeti, 17.04.2018).

Hal-hazırda akademiyanın Rəyasət Heyəti onun vəzifələrinin icrasını təmin edən kollegial icra orqanıdır və akademiyanın prezidentindən, vitse-prezidentlərindən, akademik katibindən, elmi bölmələrin akademik katiblərindən, regional elmi bölmələrin sədrlərindən və akademiyanın digər həqiqi üzvlərindən ibarətdir (bənd 8.1-8.2). Akademiyanın təşkilati-idarəetmə strukturu çox pilləlidir: Akademiyanın yığıncağı-Rəyasət Heyəti – elmin sahələri üzrə bölmələr - bölmələrin ümumi yığıncağı-bölmələrin bürosu-institutlar. İndiki şəraitdə çox pilləli idarəetmə sistemi operativliyi və məsuliyyət bölgüsünün konkretliliyini təmin etmir, qərarların qəbul edilməsini ləngidir, institutların müstəqilliyini məhdudlaşdırır və sair bunlara bənzər neqativ hallara səbəb olur.

Akademiyanın idarəetmə sisteminin və strukturunun onun qarşısına qoyulan vəzifələrə və bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq qurulması zəruridir. Bu məqsədlə, əvvəla, onun Rəyasət Heyətinin tərkibi yeni qayda ilə müəyyən edilməlidir. Onun tərkibinə elmi-tədqiqat qurumları olan mərkəzi idarəetmə orqanlarının və iri şirkətlərin nümayəndələri, tutduqları vəzifəyə görə Akademiyanın institutlarının rəhbərləri, habelə əsas ali təhsil müəssisələri və sahə elmi-tədqiqat institutlarının rəhbərləri səsvermə hüququ ilə daxil edilməlidir. Rəyasət Heyətinin ümumi yığıncaqlar arası dövrdə Akademiyanın yeni hazırlanmış əsasnaməsi ilə müəyyən edilmiş səlahiyyətlər daxilində edarəetmə funksiyasını icra edən. Rəyasət Heyyətinin say və fərdi tərkibi Akademiyanın təklifi əsasında Nazirlər Kabineti tərəfindən təstiq edilmiş düzgün olar. Rəyasət Heyətinin tərkibinin genişləndirilməsi elmi-tədqiqatların və elmi-texniki məhsulların praktikada istifadəsində mühüm addım ola bilər. Elmi və elmi-texniki fəaliyyətin Akademiya tərəfindənindiki elmin sahələri üzrə bölmələr tərəfindən idarəetmə prinsipindən funksional idarəetmə prinsipinə keçmək məqsədəuyğundur. Bu məqsədlə elm sahələri üzrə bölmələr ləğv edilməklə, elmin sahələri üzrə kuratorluq funksiyası bilavasitə vitse-prezidentlərə həvalə edilə bilər. Akademiya sistemində güclü vahid marketinq xidməti yaradılmalıdır. Onun əsas vəzifəsi bütünlükdə ölkə üzrə elmi və elmi-texniki məhsullar üçün bazarın axtarışı və satışının təşkil edilməsi olmalıdır. Müəyyən hədd daxilində bu fəaliyyət növlərinin kommersiyalaşması siyasəti həyata keçirməlidir.

**Elmi tədqiqatların əlaqələndirilməsi**

Ölkənin digər idarəetmə orqanlarının tərkibinə daxil olan dövlət və özəl elmi-tədqiqat və ali təhsil müəssisələri ilə Akademiyanın qarşılıqlı fəaliyyətini tənzimləyən dəqiq və konkret mexanizmlər müəyyənləşdirilməlidir. “Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının AMEA ilə qarşılıqlı əlaqəsi bu qurumların haç birinin nizamnaməsində və əsasnaməsində öz əksini tapmamışdır. Ona görə də AMEA ilə Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının qarşılıqlı münasibətlərinə diqqət yetirmək əhəmiyyət kəsb edir. Əvvəllər Əlaqələndirmə Şursı AMEA tərəfindən yaradılırdı və onun rəhbərliyi altında fəaliyyət göstərirdi. AMEA-nın prezidenti eyni zamanda şuranın sədri funksiyasını icra edirdi. İndi “Elm haqqında” qanuna uyğun olaraq Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası yaradılmışdır (maddə 22). Onun fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təstiq edilmiş əsasnamə ilə tənzimlənir. Elmin istiqamətləri əsasında elmi problemlər üzrə şuralar, əvvəlki illərdən fərqli



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olaraq, Əlaqələndirmə Şurası tərəfindən formalaşdırılır. Şuranın 15 nəfərdən ibarət tərkii (sədr, məsul katib daxil olmaqla) Nazirlər Kabineti tərəfindən təstiq edilir.

Mövcud normativ sənədlərdən aydın olur ki, hər iki qurum müstəqildir: Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası. Onların qarşılıqlı fəaliyyətini tənzimləyən mexanizm yoxdur, onların qarşısına qoyulan əsas vəzifələrdə eyniliklər də var. Məsələn, ölkə başçısı tərəfindən 2014-cü ildə təsdiq edilmiş nizamnaməsində göstərilir ki, Akademiyanın vəzifəsi Azərbaycan Respublikasında elmi sahələrinin prioritet istiqamətlər üzrə inkişafını təmin etməkdən, fundamental, eksperimental və tətybiqi elmi tədqiqatların təşkilini, əlaqələndirilməsini, təşkilati hüquqi və mülkiyyət formasından asılı olmayaraq elmi tədqiqat müəssisələrinin elmi fəaliyyətini təhlil etməkdən, istiqamətləndirilməsini, inkişafını təmin etməkdən, onların ayrı-ayrı sahələrə tətbiqində iştirak etməkdən, elmlə istehsalın qarşılıqlı əlaqələrini təşkil etməkdən, Azərbaycan Respublikasının elmi-texniki inkişafının kompleks proqnozlarını isləyib hazırlamaqdan ibarətdir. 2017-ci ildə Nazirlər Kabineti tərəfindən Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının əsasnaməsində göstərilir ki, Şura ölkədə aparılan elmi tədqiqat işlərini əlaqələndirir, fundamental və tətbiqi tədqiqatların, sahələrarası elmi-texniki problemlərin həyata keçirilməsinə nəzarəti və onların nəticələrinin və səmərəliliyinin yüksəldilməsini təmin edir (bənd 2). Hökumət tərəfindən qarşısına 14 bənddən ibarət vəzifə qoyulan qurumun ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulur. Onun hüquqları isə elmi müəssisə və təşkilatların elmi tədqiqat işlərini ölkənin aktual problemlərinə istiqamətləndirməkdən, hesabatları və məruzələri dinləməkdən, müvafiq qərarlar qəbul etməkdən, elmi ideyaların innovasiya və sahibkarlıq sahələrinə istiqamətləndirməldən və zəruri məlumatlar almaqdan ibarətdir. Burada bir sualın cavabı yoxdur. Şuranın qərarlarının AMEA-nın institutları, ali təhsil müəssisələri və ölkə üzrə digər elmi təşkilatlar tərəfindən yerinə yetirilməsi məcburidir, yoxsa könüllü xarakter daşıyır. Başqa sözlə, əsasnamədə Şuraya icrası məcburi olan qərarlar qəbul etmək hüququ verilməmişdir. Onun vəzifələrindən biri fundamental və tətbiqi tədqiqatların yerinə yetirilməsinə ancaq nəzarət etməkdir ("Əsasnamə", bənd 2.1.3). Bu da "Elm haqqında" qanunla qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək üçün yetərincə deyildir. "Əsasnamə"də göstərilir ki, Əlaqələndirmə Şurası ictimai əsaslarla fəaliyyət göstərir. İqtisad elmi üzrə uzun müddət Əlaqələndirmə Şurasının üzvü kimi hesab edirəm və praktika göstərir ki, Şuranın qarşısına qoyulan çox mühüm funksiyaları ictimai əsaslarla yerinə yetirmək qeyri-mümkündür. Həmin funksiyaları burada sadalamağı lüzum görmürəm. Düşünürəm ki, elmin inkişafına dair "Strateqiya"da, "Dövlət Proqramı"nda nəzərdə tutulan və AMEA-nın qarşısına qoyulan vəzifələrin vaxtında və lazımi səviyyədə icrasını təmin etmək məqsədilə Əlaqələndirmə Şurasının əvəzinə AMEA-nın struktur bölməsi kimi Əlaqələndirmə departamentinin yaradılması düzgün olar. Departamentin qəbul etdiyi pazılaşdırılmış təklidlər AMEA-nın qərarlarından sonra nazirliklər, elmi-tədqiqat və təhsil müəssisələri üçün məcburi hesab edilməlidir. Bu hüquq AMEA-nın əsasnaməsində qeyd olunmalıdır. Ölkə üzrə elmi-tədqiqat işləri planlarının müvafiq elmi mərkəzlərlə birlikdə (mülkiyyət formasından asılı olmayaraq) razılaşma əsasında hazırlanması bu quruma həvalə edilməlidir. Elmi problemlər üzrə departamentin 4-5 nəfərdən ibarət (sədr, katib, texniki işçilər) ödənişli əsaslarla şöbələri yaradıla bilər. Departamentin işçiləri dövlət qulluqçusu hesab edilməlidi

**Nəticə**

Azərbaycanın emal sənayesində innovasiya təyinatlı məhsul istehsalının 2018-ci ildə 2010-cu illə müqayisədə əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, onun xüsusi cəkisi cəmisi 0,28 faiz olmuşdur. Azərbaycanda əmək məhsuldarlığı Rusiya, Litva və Qazaxstanla müqayisədə 1,6-2,3 dəfə, Avropa ölkələri ilə müqayisədə 6-7 dəfə aşağıdır (2014-cü il).



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

2018-ci ildə dövlət büdcəsindən elmə ayrılan vəsait ümumi daxili məhsulun cəmisi 0,15 faizini təşkil etmişdir. Avropa ölkələrində məşğul əhalinin 1-5%-i kənd təsərrüfatında çalışırsa, Azərbaycanda bu göstərici 36,3 faiz olmuşdur (2018-ci il). 2009-cu ildə qəbul edilmiş elmin inkişafı üzrə Milli Strategiyada ölkənin elmi-tədqiqat müəssisələrində həyata keçirilən tədqiqatların vahid mərkəzdən AMEA tərəfindən həyata keçirilməsi nəzərdə tutulsa da bu model indiyə qədər tətbiq edilməmişdir. Vahid mərkəzdən idarəetmə modelini tətbiq etmək məqsədilə AMEA-nın fəaliyyətini və strukturunu tənzimləyən normativ hüquqi aktlara ciddi dəyişikliklərin edilməsi tələb olunur.

## Ədəbiyyat

1.Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya.
2.”Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı”.
3.2016-cı ildə qəbul edilmiş “Elm haqqında” Azərbaycan Respublikasının qanunu.
4. Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 2014-cü il tarixli Fərmanı ilə təctiq edilmiş AMEA-nın Nizamnaməsi.
5.Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təstiq edilmiş “Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirməsi Şurasının Əsasnaməsi”.
6.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri olan “Azərbaycanın statistika göstəriciləri” və “Azərbaycanın sənayesi topluları.



***Тофиг Гусейнов***
***д.э.н.,проф., заслуженный экономист республики,***
***заведующий отдел Института Экономики НАНА***

***Управление научной деятельностью в Азербайджане из единого центра- требование времени***

***Резюме***

*Нормативно-правовыми актами Азербайджанской Республики представлено право Национальной Академии Наук Республики организовать и обеспечить развитие науки в стране, координировать деятельность всех научных организаций и научной деятельности высших учебных заведений. В статье в соответствии со статусом НАНА анализированы нормативные акты по организации и регулированию ее деятельности и выработаны предложения по внедрению модели управления научной деятельности в стране из единого центра.*

***Ключевые слова:*** *национальная стратегия, модель управления единого центра, инновационная экономика, государственный заказ, финансирование науки, прозводительность труда, устав, положение, координация.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Tofig Huseynov***
***doctor of economics, prof., honored economist of the republic,***
***head of the department of the Institute of Economics of ANAS***

***Management of scientific activities in Azerbaijan from a single center is a requirement of time***

***Resume***

*The normative legal acts of the Republic of Azerbaijan represent the ringht to the Azerbaijan National Academy of Sciences of the republic to organize and ensure the development of science in the country, coordinate the activities of all scientific organizations and scienlific activities of higher educational institutions. In the article, in accordance with the status of the ANAS, regulatory acts on the organization and regulation of its activities are analyzed and proposals are for the implementation of a management model of scientific activity in the country from a single center are developed.*

***Key words:*** *national strategy, management model of a single center, innovative economy, state order, financing of science, labor productivity, provision, regulation, coordination.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 02.12.2021.***
***Çapa qəbul olunub: 06.12.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*